# AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA ÇAYÇILIĞIN KLASTER ƏSASINDA İNKİŞAF İSTİQAMƏTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5312.01 – Sahə iqtisadiyyatı |
| Elm sahəsi: | İqtisad elmləri |
| İddiaçı: | **Pərvin Qədir qızı Məmmədova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**BAKI - 2025**

Dissertasiya işi Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Rövşən Rasim oğlu Quliyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Natiq Əli oğlu Cavadov**

iqtisad elmləri doktoru
**Anar Fazil oğlu Abbasov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Anar Nizami oğlu Hətəmov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ________ imza — iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

Dissertasiya şurasının elmi katibi: ________ imza — iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Suqra İnqilab qızı Hümbətova**

Elmi seminarın sədri: ________ imza — iqtisad elmləri doktoru, dosent
**Ramil Zahid oğlu Hüseyn**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi * Azərbaycan Dövlət İqtisad Universiteti publik hüquqi şəxs * UNEC * ÜMUMİ ŞÖBƏ

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzusunun aktuallığı və işlənmə dərəcəsi.** Regionların kənd təsərrüfatı potensialının inkişafına yönəlmiş sosial-iqtisadi münasibətlər sisteminin təkmilləşdirilməsi zərurəti iqtisad elminin qarşısında dövlət və biznes strukturları arasında qarşılıqlı faydalı əməkdaşlığın optimal formalarını tapmaq vəzifəsini qoyur. Bu şərtlər daxilində, Azərbaycan regionlarının iqtisadi məkanının iqtisadi cəhətdən təşkilinin ən aktual forması regionun inkişafı üçün əsas model kimi seçilmiş ölkənin 2026-cı ilə qədər dövr üçün nəzərdə tutulmuş uzunmüddətli sosial-iqtisadi inkişaf konsepsiyasında əks olunmuş klaster yanaşması əsasında ölkə iqtisadiyyatının və bazar münasibətlərinin subyektləri arasında əməkdaşlığa, iştirakçıların etimad, öhdəlik və qarşılıqlı fayda ilə xarakterizə olunan uğurlu birgə rəqabətə yönəldilməsidir.

İqtisadi cəhətdən inkişaf etmiş və qlobal klasterlər formalaşmış dövlətlərin təcrübəsi göstərir ki, klaster yanaşmasından iqtisadi və ərazi inkişafı aləti kimi istifadə regionların coğrafi məkanını rasionallaşdırmağa və yaxınlaşma proseslərinin əhəmiyyətini artırmağa imkan verir. 2012-ci ildən başlayaraq Azərbaycan hökuməti regional inkişafın elementi kimi klaster siyasətini həyata keçirir, klasterlərin müəyyənləşdirilməsinə və inkişafının stimullaşdırılmasına təşəbbüs göstərir, o cümlədən onların inkişaf proqramlarının həyata keçirilməsi üçün subsidiyalar verir. Hazırda Azərbaycanda kənd təsərrüfatının inkişafı üzrə müxtəlif sahələrdə 6 klaster dövlət dəstəyi alıb, digər sahələrdə də regionlar üzrə klasterlərin yaradılması və formalaşması həyata keçrilir. Eyni zamanda qeyd etmək lazımdır ki, regionlarda klasterlərin formalaşması prosesləri eyni deyil, iqtisadi-coğrafi, sosial, ekoloji, demoqrafik, mədəni amillərin və s. müxtəlif təsirlərə, özünəməxsus xüsusiyyətlərinə görə təşkil edilir. Bu da öz növbəsində klasterlərin formalaşmasında çoxmərhələli metodların yaradılmasına və heterogen göstəricilərin inteqrasiyasına ciddi ehtiyacın olmasını müəyyən edir. Tədqiqat mövzusunun aktuallığı Azərbaycanda klasterin inkişafı ideyalarının regionların coğrafi məkanının kompleks inkişafının ən vacib komponenti kimi dövlət dəstəyi çərçivəsində həyata keçirilməsi, klasterin formalaşması prosesləri və yollarının təkmilləşdirilməsi ehtiyacı ilə bağlıdır. Bütün söylənənlər, klasterlərin formalaşması və modernləşdirilməsi əsasında regional idarəetmə

təcrübəsini genişləndirəcək, həmçinin onların inkişafı proseslərində dövlətin iştirak səviyyəsini yüksəldəcəkdir.

İqtisadiyyatın klaster inkişafı və regional məkanın təkmilləşdirilməsi məsələləri azərbaycan və xarici alimlərin tədqiqatlarında mühüm yer tutur. Regional ixtisaslaşma nəzəriyyəsinin inkişafına və miqyas iqtisadiyyatlarının tədqiqinə mühüm töhfələr xarici alimlərin A.Smit, D.Rikardo, E.Hekşer, B.Ohlin, J.Thünen, A.Weber, V.Christaller, A.Marshall, J.Becattininin, eləcə də Qərb ədəbiyyatında iqtisadiyyatın və klaster siyasətinin klasterləşdirilməsi məsələləri E.Dahmen, P.Kruqman, E.Limer, D.Mailat, M.Porter, P.Hertoq, M.Enrayt və başqalarının əsərlərində öz əksini tapmışdır. Rusiyada klaster siyasətinin formalaşması və səmərəliliyinin qiymətləndirilməsi məsələləri yerli tədqiqatçılar L.S.Markova, Y.V.Ryabçenyuk, L.N.Çaynikova, A.G.Shestopalov, regionda klaster inkişafının dövlət tənzimlənməsi: V.L.Belousova, D.G.Voronova, T.V.Mirolyubova kimi alimlər öz elmi əsərlərində klaster potensialının müəyyən edilməsinin metodoloji aspektlərini verməklə bu sahədə mühüm nəticələr əldə etmişlər.

Azərbaycan iqtisad elmində regional məkanın formalaşması və yenidən qurulmasında klaster yanaşmasının tətbiqi imkanları aşağıdakı alimlərin əsərlərində aşkar edilmişdir: Ə.X.Nuriyev, A.A.Nadirov, T.B.Hüseynov, Z.Ə.Səmədzadə, S.K.Hüseynov, İ.H.Alıyev, Ə.Q.Əlirzayev, T.N.Əliyev, İ.Q.Soltanlı, V.B.Kərimli, S.S.Səməndərov, H.A.Xəlilov, R.Ə.Balayev, S.V.Salahov, R.P.Sultanova və digərlərinin əsərlərində öz əksini tapmışdır. Tədqiq olunan mövzunun müəyyən aspektlərinin açılmasına dair nəzəri yanaşmaların və tətbiqi tədqiqatların müxtəlifliyini qeyd edərək, Azərbaycan regionlarının iqtisadi məkanının modernləşdirilməsinin klaster aspektlərinin hazırda elmi tədqiqatlarına tələbat olduğunu vurğulamaq lazımdır. Qarşıya qoyulan problemin miqyası və dərinliyi, aktuallığı və artan praktiki əhəmiyyəti mövzunun seçimini, tədqiqatın məqsəd və vəzifələrini, habelə tədqiqatın obyektini və mövzusunu müəyyən etmişdir.

**Tədqiqatın obyekti.** Çayçılıqda dövlət dəstəyi əsasında formalaşan təşkilati və iqtisadi münasibətlərin dinamik sistemi kimi klasterlər seçilmişdir.

**Tədqiqatın predmeti.** Klaster siyasəti kimi çayçılıqda regional iqtisadi klasterlərin formalaşması və modernləşdirilməsi zamanı

onların idarə olunması üçün inkişaf strategiyasının və dövlət dəstəyinin göstərilməsi imkanlarının tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi dövlət dəstəyi mexanizmlərindən istifadə etməklə regional klasterlərin formalaşdırılması və müasirləşdirilməsinə metodoloji yanaşmaların nəzəri əsaslandırılması və işlənib hazırlanmasıdır. Bu məqsədə nail olmaq aşağıdakı tədqiqat vəzifələrinin həllini zəruri etmişdir:

- Azərbaycan regionlarında klaster idarəçiliyinin təşkili strukturunu təhlil etmək və sistemləşdirmək;
- regional iqtisadiyyatda klasterlərin fəaliyyətinin təhlili və qiymətləndirilməsi metodologiyasını işləyib hazırlamaq və sınaqdan keçirmək;
- Azərbaycan regionlarında klasterin inkişafı proqramlarının əsas parametrləri nəzərə alınmaqla iqtisadi fəaliyyətin klasterləşdirilməsinin nəticələrini qiymətləndirmək;
- özünü təşkil edən xüsusiyyət xəritələrinin istifadəsi əsasında Azərbaycanın regionlarında klasterlərin coğrafi mövcudluğunun genişləndirilməsi perspektivlərini müəyyən etmək;
- klasterlərin inkişafının sektoral yönümünün xüsusiyyətlərini nəzərə almaqla onların təkmilləşdirilməsi alqoritmini təklif etmək və əsaslandırmaq.

**Tədqiqat metodoları.** Tədqiqat işində iqtisadi-riyazi modelləşdirmə, müqayisəli təhlil, qrafik təsvir, sistemləşdirmə, statistik təhlil, retrospektiv, kateqoriyalı, faktorial, sistem və klaster analizi, modelləşdirmə və proqnozlaşdırma üsullarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. İddia edilir ki, regionun əsas göstəricilərinin müsbət dinamikası onun ərazisində klasterlərin olması ilə daha da güclənə bilər.

2. Regional iqtisadiyyatda klasterlərin yaranmasının mühüm amil olması ilə əlaqədar xüsusi klaster mexanizmləri mövcuddur.

3. Regional iqtisadiyyatda klasterlərin yaradılması sahəsində nəzəri baxışların müqayisəli təhlili nəticəsində müəyyən edilmişdir ki, klasterlərin formalaşması və klasterlərin yaranma potensialının aşkara çıxarılmasının ümumi əsaslarını öyrənməyə imkan verən əsas şərt dövlət dəstəyidir.

4. Klasterin idarə edilməsi konsepsiyasının formalaşdırılmasının hazırlanmasında əsas komponent klasterin identifikasiyası üçün fərqləndirici meyarların müəyyən edilməsidir.

5. Klasterin idarə edilməsinin regional təşkilati strukturunda daxili özünü idarəetmənin klaster üzvləri tərəfindən həyata keçirilməsi müəyyən edilmişdir.

6. Regional klaster idarəçiliyinin uğurlu fəaliyyət göstərməsi üçün əlaqələrin inkişafı onların yerləşdiyi ərazilərin kompleks inkişafının həyata keçirilməsində, klasterlərin formalaşmasında iştirak edən maraqlı tərəflərin əlaqələrinin təkmilləşdirilməsi mühəndislik infrastrukturu və sosial müdafiənin dəstəyi ilə birləşdirildikdə daha uğurla həyata keçirilə bilər.

7. Dünya təcürbəsində klasterlərin formalaşdırılması mexanizmləri tədqiq edilərək onların ən vacib olanları diqqətdə saxlanılmalıdır.

8. Azərbaycanın Lənkəran-Astara regionunda çayçılıqda klaster yanaşmasının perspektivlərini qiymətləndirmək üçün təklif olunan inkişafın əsas parametrləri nəzərə alınmaqla regional iqtisadiyyatda klasterlərin fəaliyyətinin təhlili və qiymətləndirilməsi metodologiyasının hazırlanmasına ehtiyac vardır.

9. Azərbaycan Lənkəran-Astara regionunda çayçılıq sənayesinin innovativ inkişafında maraqlıdır və bu sahənin həm yeni iş yerlərinin yaradılmasında, çay məhsullarının rəqabətqabiliyyətinin artırılmasında, həm də ölkəyə valyuta gəlirlərinin daha da artırılmasında kənd təsərrüfatı klasterlərinin tətbiqi fonunda rolunu yüksək qiymətləndirir.

10. Regional klasterlərin yaradılması alqoritmi iqtisadiyyatın yalnız məkan daxilində təşkilinə xas olan bir sıra unikal xüsusiyyətlərini onun təsərrüfat fəaliyyətinin sahə və korporativ formalarına münasibətində daha səmərəli edir.

11. Aqrar sektorun xüsusən də çayçılığın klaster əsasında inkişafının dövlət tərəfindən stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi məqsədəuyğun hesab edilir.

**Tədqiqatın elmi yeniliyi.**

- Uzunmüddətli klaster prosesində iştirak edən əsas maraqlı tərəflərin təhlili əsasında bu prosesin davamı olaraq müasir xüsusiyyətləri özündə əks etdirən çayçılıq klasterlərinin idarəçiliyinin təşkilatı strukturu formalaşdırılmış, onlar arasında qarşılıqlı əlaqələr

müəyyənləşdirilmişdir.

- Regional klasterlərin formalaşması və inkişafında xarici ölkələrin təcrübələrinə əsaslanaraq Azərbaycanda çayçılıq üzrə klasterlərin formalaşdırılmasını özündə ehtiva edən və onu ləngidən amillər sistemləşdirilmişdir.

- Beş istiqamət (dövlət proqramlarının təhlili, klasterin inkişafının formalaşması, risklərinin ssenariləri, kənd təsərrüfatı müəssisələrinin və klasterlərin sahə potensialının təhlili) əsasında regional iqtisadiyyatda çayçılıq klasterlərinin fəaliyyətinin təhlili və qiymətləndirilməsi metodologiyası təklif olunmuşdur.

- Sinxronizasiyanı təmin etməyə imkan verən, klasterlərin inkişaf proqramlarının tədqiqindən əldə edilən müəllif yanaşması əsasında işıqfor matrisi üzrə sıralama metodundan istifadə etməklə risk və skorinq təhlili əsasında regional klasterlərin inkişafını təmin edəcək dövlət inkişaf strategiyaları ilə uzlaşdırılmış orta (2026-cı ilə qədər) və uzunmüddətli (2030-cu ilə qədər) klaster inkişaf proqnozları işlənilmişdir.

- Azərbaycan regionlarında potensial klasterlərə çevrilə biləcək müəssisələr təyin edilmiş, onların konsentrasiyasının düzgünlüyünü müəyyənləşdirmək üçün xüsusiyyət xəritələrindən istifadə edilməklə regionların klaster potensialı qiymətləndirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti çayçılıqda dövlət dəstəyi əsasında regional iqtisadi klasterlərin formalaşdırılması və müasirləşdirilməsi üçün metodiki tövsiyələrin işlənib hazırlanması və əlavə edilməsindədir. Tədqiqatın praktiki əhəmiyyəti Azərbaycan regionlarında çayçılıqda klaster inkişafı proqramlarının hazırlanmasında, regional iqtisadi artım konsepsiyası və strategiyalarının işlənib hazırlanmasında və həyata keçirilməsində dövlət orqanları tərəfindən metod və tövsiyələrdən istifadə etmək imkanından ibarətdir.

Tədqiqatın nəticələrindən istifadənin iqtisadi səmərəsi çayçılıqda klasterlərin formalaşması nəticəsində regionların coğrafi məkanından istifadənin rasionallaşdırılması, klaster proqramlarının həyata keçirilməsi vaxtının azaldılması, eləcə də klasterlərin miqyasının klasterlərə və regionlara dövlət dəstəyində artırılması ola bilər. Aparılan dissertasiya tədqiqatının nəticələri ali təhsil müəssisələrində elmi və tədris proseslərində, habelə regional hakimiyyət orqanları tərəfindən

Azərbaycanın təsis qurumlarının sosial-iqtisadi inkişafı strategiyalarının formalaşdırılmasında istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları və irəli sürülən əməli təkliflər. Azərbaycanda çayçılıq ənənələrinin tarixi və inkişafı. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri jurnalı, 2019. Klaster siyasətinin bölgələrin inkişafındakı rolu və əhəmiyyəti. AHİK, AƏSMA, Ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı 2020. Xarici bazarlarda David çayının dəyər təklifinin formalaşdırılması xüsusiyyətləri. Əmək və sosial münasibətlər elmi-praktiki jurnal, 2021. "David`s tea" şirkətinin fəaliyyət aspektləri və dəyər təklifinin formalaşma xüsusiyyətləri // AHİK, AƏSMA, Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı 2021. Azərbaycanda çayçılığın inkişafında dövlət dəstəyi və onun təkmilləşdirilməsi istiqamətləri. Tikintinin iqtisadiyyatı və menecmenti elmi-praktiki jurnal, 2021. Çay klasterlərinin inkişafında dünya təcrübəsi. Əmək və sosial münasibətlər elmi-praktiki jurnal, 2021. COMPARATIVE ANALYSIS OF ECONOMIC INDICATORS OF THE TEA SECTOR OF AZERBAIJAN AND GEORGIA // RS Global Journals. International Journal of Innovative Technologies in Economy. p-ISSN 2412-8368 e-ISSN 2414-1305. RS Global Sp. z O.O., Poland. 09 December 2021. Parvin Mammadova. (2021) International Journal of Innovative Technologies in Economy. 4(36). doi: 10.31435/rsglobal_ijite/30122021/7717, RS Global Sp. z O.O., Poland. 09 December 2021. CLASTER STRATEGY FOR REGIONAL DEVELOPMENT: THE NATURE, ADVANTAGES AND EXPERIENCE OF INSTITUTIONAL SUPPORTREGİONAL // INTERNATIONAL TEA CONGRESS "industrial, cultural and economic dimensions" 13-15 May 2022/ Lankaran, Azerbaijan Lenkeran State University. (THE PROCEEDINGS BOOK) All rights of this book belong to IKSAD. Without permission can't be duplicate or copied. Authors are responsible both ethically and juridically IKSAD Publications – 2022, Covid-19 -un azərbaycanda çay plantasiyalarının və çay istehsalının dinamikasına təsirləri. AƏSMA, I

Beynəlxalq Sosial Elmlər Konfransı, Bakı–2021. Məmmədova P.Q., Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsində yeyinti sənayesinin yerivə rolu // ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR ELMİ-PRAKTİK JURNAL, 2023, № 2 (20). "Enhancing the state's role in cluster-based tea development" // Transforming economics for sustainability mövzusunda Beynəlxalq elmi konfrans. Dunaujvaros Universiteti, Macarıstan, 25-26 mart 2024, s.49-58. "The role of the state in the development of the tea sector in Azerbaijan" // IV Beynəlxalq Boğaziçi Elmi Araşdırmalar Konqresi, Türkiyə, İstanbul. 27-28 aprel 2024, s.442-447.

Dissertasiya işinin nəticələri, müddəalar və əsaslandırılmış təklif və tövsiyələri əhatə edən 12 məqalə ölkə daxili və xarici jurnal, konfranslarda məruzə edilmiş və təsdiq edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Odlar Yurdu Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya girişdən (12792 işarə), üç fəsildən (I fəsil – 96812 işarə, II fəsil – 7225 işarə, III fəsil – 67862 işarə), o cümlədən 9 paraqrafdan, nəticədən (7142 işarə), 113 mənbədən istifadə olunan ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi ədəbiyyat siyahısı, cədvəllər, şəkillər, qrafiklər, diaqramlar və əlavələr istisna olmaqla 256953 işarəni əhatə edir. İşdə 23 cədvəl, 29 şəkil, 12 diaqram və 9 qrafikdən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI


**GİRİŞ**

**I FƏSİL. İqtisadi fəaliyyətin klasterləşdirilməsi: nəzəri və konseptual yanaşmalar**

1.1. İqtisadiyyatda klasterlərin mahiyyəti və formalaşma mərhələləri

1.2. Azərbaycanda klaster idarəetməsinin təşkilati strukturu

1.3. İqtisadiyyatın klasterləşməsində beynəlxalq təcrübənin öyrənilməsi və Azərbaycanda tətbiqi xüsusiyyətləri

**II FƏSİL. Azərbaycanın çayçılıq sektorunda iqtisadi klasterlərin formalaşması və inkişafının kompleks təhlili**
2.1. Çayçılıqda klasterlərin formalaşması və inkişafınının qiymətləndirilməsinə sistemli yanaşma
2.2. Azərbaycanda çayçılığın müasir vəziyyətinin kompleks təhlili
2.3. Lənkəran-Astara iqtisadi rayonunda çayçılığın klasterləşdirilməsi imkanlarının tədqiqi
**III FƏSİL. Azərbaycanda çayçılığın klaster əsasında inkişafının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi istiqamətləri**
3.1. Klaster əsasında çayçılığın inkişafında dövlətin rolunun artırılması istiqamətləri
3.2. Azərbaycanda çay klasterinin rəqabət qabiliyyətinin qiymətləndirilməsi
3.3. Azərbaycanda çayçılığın inkişafında klasterlərin modernləşdirilməsi perspektivlərinin modelləşdirilməsi
**NƏTİCƏ**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**
**İXTİSARLARIN VƏ ŞƏRTİ İŞARƏLƏRİN SİYAHISI**
**ƏLAVƏLƏR**

## MÜDAFİƏYƏ ÇIXARILAN ƏSAS MÜDDƏALAR

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın öyrənilmə səviyyəsi, predmeti, məqsəd və vəzifələri müəyyən edilir, işin nəzəri və metodoloji, elmi yeniliyi və təcrübi əhəmiyyəti göstərilir.

**1. İddia edilir ki, regionun əsas göstəricilərinin müsbət dinamikası onun ərazisində klasterlərin olması ilə daha da güclənə bilər.**

Azərbaycan bazar iqtisadiyyatı prinsiplərini əsas tutaraq öz milli dəyərləri fonunda iqtisadiyyatını inkişaf etdirmək üçün ölkəmizdə aqrar sahənin mümkün olan potensialından tam mənada düzgün olaraq

səmərəli istifadə olunması Gələcəyə baxış inkişaf Konsepsiyası əsasında qarşıda duran ən vacib problemlərdən birinə çevrilmişdir. Bu mənada aqrar sektorun klaster inkişafına göstərilən dövlət dəstəyi və yardımı olduqca zəruri və çoxşaxəli məsələlərdəndir. Təbii ki, bu sahədə yüksək məhsuldarlığın təmin olunması, yerli məhsulların və əmtəələrin rəqabət qabiliyyətinin yüksəldilməsi, aqrar sektorun əsas gəlirli sahələrinin düzgün müəyyən edilərək inkişaf etdirilməsi, kəndli fermer təsərrüfatlarına dövlət dəstəyinin daha səmərəli və müasir formalarının təşkil edilməsi aqrar sektorda dövlət siyasətinin vacib istiqamətlərini özündə əks etdirir. Ölkəmizdə aqrar sektorun inkişafına göstərilən birbaşa dövlət dəstəyi sayəsində regionlarda dövlətin ayırdığı vəsait hesabına aqrar təsərrüfat üçün zəruri olan sahələr üzrə klasterlər formalaşdırılaraq infrastruktur yaradılır və bu sahələrə  birbaşa investisiyalar yönəldilir.

Azərbaycanda klasterlərin iqtisadi fəaliyyət sferalarında yaradılmasının vacibliyi "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"ndə də prioritet istiqamətlərdən biri kimi qeyd edilmişdir. Eyni zamanda Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi, həmçinin cənub regionu üçün vacib olan, Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Ölkə Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 saylı müvafiq Sərəncamına əsaslanaraq hazırlanmış Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı Respublikada çayçılığın innovasiyalı inkişafına birbaşa dövlət dəstəyinin artırılmasına, bu sahənin mövcud potensial imkanlarından və resurslarından səmərəli istifadə olunmasına, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və eləcə də, əhalinin sosial vəziyyətinin və  maddi rifah halının son dərəcədə yaxşılaşdırılması şərti ilə həmin ərazilərdə çay emalı və istehsalına olan marağın artırılmasına istiqamətlənmişdir.

**2. Regional iqtisadiyyatda klasterlərin yaranmasının mühüm amil olması ilə əlaqədar xüsusi klaster mexanizmləri mövcuddur.**

Müasir iqtisadi ədəbiyyatlarda klasterin məzmunu və mahiyyəti, əhatə dairəsi, təşkili və idarə edilməsi, eləcə də formalaşma mexanizmi və inkişafı haqqında çoxsaylı fərqli yanaşmalar və fikirlər qalmaqdadır. Klasterləşmənin mahiyyəti sözün etimologiyasına olan münasibəti tam

mənada gerçəkliyi ilə ortaya qoyur. Belə ki, sözün əsas hissəsi-toplaşmaq, bir neçə eynicinsli elementlərin birləşməsi ilə müəyyən xüsusiyyətlərə malik olmaqla vahid bir orqanizm kimi qəbul oluna bilən, xidməti fəaliyyətin əsasları həmcins hesab olunan sahibkarlıq subyektlərinin formalaşması və inkişafı anlamına gəlir. Klasterləşmənin bütün şərhlərində yalnız bir xüsusiyyət - qruplar üçün ümumi olan, bu və ya digər xüsusiyyətə görə böyük bir populyasiyadan təcrid olunmuş hər hansı bir obyekt qrupu kimi fikir əsas götürülür. Claster (ingiliscə *cluster* - topluluq, icma, toplanma və s.) - bir neçə oxşar elementləri özündə birləşdirən və müəyyən xüsusiyyətlərə malik olan müstəqil təsərrüfat vahididir.

Klasterin tərifi, onun mahiyyətinin klaster daxilində iştirak edən təşkilatların sıx qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinə və eləcədə onun xaricində klasterlərarası tərəfdaşlığın təşkili mexanizminə əsaslanır. Bu cür əlaqələrin ən vacib komponenti gələcəkdə klasterin yaranması üçün əlverişli şərait yaratmaq imkanını təmin edən zəruri və kifayət qədər ilkin şərtlərin olmasıdır. Belə ki, klaster əməkdaşlığı çərçivəsində qurulan əlaqələr elmi tədqiqat və istehsalat tərəfdaşlığı, həmçinin, klasterin inkişafı üçün birgə layihələrin həyata keçirilməsi prinsiplərinə əsaslanır.

**3. Regional iqtisadiyyatda klasterlərin yaradılması sahəsində nəzəri baxışların müqayisəli təhlili nəticəsiində müəyyən edilmişdir ki, klasterlərin formalaşması və klasterlərin yaranma potensialının aşkara çıxarılmasının ümumi əsaslarını öyrənməyə imkan verən əsas şərt dövlət dəstəyidir.**

Klaster təkamülü nəzəriyyəsinin təhlili müəyyən etməyə imkan verir ki, əgər XIX əsrdə tarixən formalaşmış sənaye kompleksləri o zamanlar regional və milli iqtisadiyyatın inkişaf mərkəzləri kimi sənaye yanaşması çərçivəsində nəzərdən keçirilirdisə, artıq XX əsrin son rübündən başlayaraq iqtisadi nəzəriyyə klasterləri rəqabət nəzəriyyəsi nöqteyi-nəzərindən öyrənilməyə başlanıldı, rəqabət qabiliyyətinin və innovativ fəallığın artmasına, həmçinin klasterin formalaşması proseslərində dövlətin roluna xüsusi diqqət yetirildi. Klaster təkamülünün mərhələlərini onların inkişafında dövlətin rolunu əks etdirən aşağıdakı üç mərhələyə ayırmaq olar:

• **I mərhələ: XVIII əsrin sonu - XIX əsrin əvvəlləri.** Bu mərhələ istehsalın təşkilinin klaster formalarının (sənət istehsalı), əmək bölgüsü

və istehsal kooperasiyasının yaranması (A.Smit, D.Rikardo, E.Hekşer, B.Olin) ilə müşaiyət olunur. Eyni zamanda, sözügedən dövr iqtisadiyyatda dövlətin minimal iştirakı ilə iqtisadi liberalizm ideyalarının dəstəklənməsi və əvvəllər yaradılmış istehsal birliklərinin saxlanması ilə xarakterizə edilir və belə hesab olunur ki, yalnız, özəl sahibkarlıq iqtisadiyyatı böhrandan çıxarmağa və iqtisadi artım səviyyəsini təmin etməklə əhalinin rifahını yüksəltməyə qadirdir.

• **II mərhələ: XIX əsrin sonu - XX əsrin əvvəlləri.** Bu mərhələ isə resurs sahələrinin bazası əsasında yaradılan klassik klasterlərin formalaşmasının nəzəri əsaslarının işlənib hazırlanması ilə təzahür etmişdır (A.Marşall, L.Valras, C.Keyns).

• **III mərhələ: XX əsrin əvvəlləri - XXI əsr.** Müasir dövr adlanan bu mərhələ klaster nəzəriyyəsinin formalaşması və klaster konsepsiyasının məzmunu və eləcə də onun praktiki həyata keçirilməsi ilə əlaqəli olan iqtisadi fikrin inkişafı ilə (Qərb iqtisadçıları: M.Porter, E.Dahmen, E.Limer, M.Enrayt, P.Kruqman, P.Hertoq və b., rus iqtisadçıları: M.K.Bandman, Q.Yu.Qaqarina, K.V.Ekimova, G.M.Zinçuk, N.N.Kolosovski, A.G.Polyakova, L.N.Çaynikova və s.) bağlıdır.

Klasterlərin formalaşması ilə bağlı elmi fikirləri sistemləşdirərək belə nəticəyə gəlmək olar ki, bu nəzəriyyələr ərazi iqtisadiyyatının modernləşdirilməsinin innovativ forması olan, iri və kiçik biznes subyektləri arasında bilik mübadiləsini, qarşılıqlı əlaqəni və şəbəkə əlaqələrini stimullaşdıran milli sənayelərə öz rəqabət üstünlüklərini inkişaf etdirməyə və saxlamağa imkan verən klaster yanaşmasına əsaslanır.

**4. Klasterin idarə edilməsi konsepsiyasının formalaşdırılmasının hazırlanmasında əsas komponent klasterin identifikasiyası üçün fərqləndirici meyarların müəyyən edilməsidir.**

Klasterin idarə edilməsi konsepsiyasının formalaşdırılması iqtisadçıların elmi fikirlərini iki qrupa ayırmağa imkan verir:

• Birinci qrup, coğrafi konsentrasiyaya və yaxud da ərazi üzrə yerləşdirməyə diqqət yetirən təriflərlə formalaşır, burada klaster anlayışı kollektiv rəqabət qabiliyyətini artırmaq üçün bir-biri ilə qarşılıqlı əlaqədə olan qonşu sektorlar daxilində ərazi baxımından məhdud əməkdaşlıq hesab olunur. Coğrafi konsentrasiya G. Schmitz (1992), S. Rosenfeld (1997), M. Preveser, D. Stout (1998), M. Porter (1998), E. Bergman, E. Feserin (1999), Y.N. Drenev (2001), S.I. Sokolenko (2002)

və N.V. Sedovanın (2013) tədqiqatlarında mərkəzi klasterin əsas ideyası olmuşdur.

• İkinci qrup isə, təkcə firmaların deyil, həm də digər təşkilatların (sənaye qovşaqları, istehsal zəncirləri, lokallaşdırılmış şəbəkələr) resurslarını və əsas səlahiyyətlərini birləşdirən iqtisadi formasiyalardan və sektorların təşkilatlararası qarşılıqlı əlaqələrindən ibarətdir. Adətən, klaster anlayışı yüksək aqreqasiya səviyyəsində müəyyən edilmiş sektorlar toplusu kimi şərh olunur. Bir-biri ilə sıx əlaqəli olan istehsal tsiklləri klasterin nüvəsini təşkil edir (məsələn, üçlü spiral konsepsiyasının iştirakçıları arasında klasterdəki əlaqələr zənciri: dövlət – biznes – elmi birlik). Bu qrupa isə aşağıda adları qeyd olunan alimlərin tədqiqatları daxildir: M. Porter (1990), P. Hertoq (1999), J. Sennett (1999), T.V. Tsixan (2003), V.M. Kutyin (2003). Beləliklə, tədqiqatda müəyyən edilmiş klaster anlayışının əsas tərifləri onun mahiyyəti ilə bağlı iqtisadçıların elmi fikirlərini sistemləşdirməyə imkan yaratmışdır.

İqtisadiyyatın klasterləşdirilməsi üzrə yerli və dünya təcrübəsinin tarixi icmalı klasterin müəyyən edilməsi üçün onun fərqli xüsusiyyətlərini oxşar strukturlardan ayırmağa imkan verən, sənaye və müəssisələrin məkanca inkişafını və onların müəyyən bir ərazidə coğrafi konsentrasiyasını təsvir etmək üçün istifadə olunan bir sıra meyarları aşkar etməyə  imkan verdi (Şəkil 1).




**Şəkil 1. Klasterin identifikasiyası üçün meyarlar**

Klasterlərin isə əsas xüsusiyyəti regionun bazar potensialının məkanca müəyyənləşdirilməsi hesabına onların yaradılmasının mümkünlüyüdür. Klaster mümkün qədər mövcud bazar mexanizmini nəzərə alır, müəssisələrin özləri (gəlirliliyini artırmaq, mal və xidmətlərin keyfiyyətini yaxşılaşdırmaq və s.) isə, yalnız klasterə birləşmək zərurəti yarandıqda effektiv olur.

**5. Klasterin idarə edilməsinin regional təşkilati strukturunda daxili özünü idarəetmənin klaster üzvləri tərəfindən həyata keçirilməsi müəyyən edilmişdir.**

Klasterin idarə edilməsinin regional təşkilati strukturunda daxili özünü idarəetmə aşağıdakı klaster üzvləri tərəfindən həyata keçirilir:

- klasterin ixtisaslaşmasını müəyyən edən sistem əmələgətirici müəssisələr onun daxilində səmərəli istehsala, bilik və texnologiyaların yayılmasına cavabdehdirlər. Klasterdaxili əlaqələrin inkişafı kiçik və orta müəssisələrin, iri təşkilatların yanında cəmləşmiş elmi müəssisələrin klasterlərinin formalaşmasına və istehsalın mütərəqqi üsullarının tətbiqinə kömək edir;
- elmi- tədqiqat müəssisələri, o cümlədən elmi müəssisələr və təhsil qurumları da (universitetlər, kolleclər, elmi-tədqiqat institutları) daxil olmaqla, təşkilatların klaster proqramlarının həyata keçirilməsinə cəlb edilməsi, məzunların yüksək texnologiyalı start-uplarının formalaşdırılması; ölkə regionlarının təhsil və elmdə potensialının, rəqabət üstünlüklərinin reallaşdırılması, rəqabətqabiliyyətli kadr potensialının formalaşdırılması və artırılması, elmi tədqiqatların perspektivli sahələri, xüsusən də, yüksək texnologiyalı sənayelərin işə salınması;
- təsisçisi hökumət subyekləri və bələdiyyə qurumları olan hər hansı bir klasterin ərazisində yerləşən hüquqi şəxs kimi təqdim olunan mühəndislik mərkəzləri. Mühəndislik mərkəzləri elmi işlərin sənayedə tətbiqini həyata keçirməklə, ilk növbədə elmi tədqiqat müəssisələrinin mövcud işlərinin kommersiyalaşdırılmasına yönəlir;
- infrastruktur sektoru, o cümlədən səhiyyə, mədəniyyət, təhsil və s. sahəsində sosial infrastruktur obyektləri; nəqliyyat, yükdaşıma, rabitə və s. sahəsində nəqliyyat; rabitə sistemləri, mühəndis şəbəkələri və s. sahəsində mühəndislik; audit, sığorta, lizinq, konsaltinq və s. sahəsində bazar infrastrukturu üzrə klasterlərin formalaşması həyata keçirilir;

- kiçik və orta sahibkarlıq subyektləri, əsasəndə, üfüqi və şaquli əlaqələri olan iri firmalar, təşkilatlar, kiçik və orta müəssisələr, habelə rəqabət aparan müəyyən qurumlar, xammal və materiallar, əmtəələr, avadanlıqlar, kompleknləşdirici məmulatlar, konturağentlər, tədarükçü-müəssisələr və xüsusi xidmətlərin (məsələn, konsaltinq, hüquq xidmətləri) daxil olduğu və oxşar texnologiyaları və istehsal amilləri olan təşkilatlar;

- maliyyə institutları, o cümlədən kredit təşkilatları: dövlət və kommersiya bankları və investisiya fondları: vençur fondları və birbaşa investisiya yatırımı ilə məşğul olan iri firmalar;

- ictimai sektorun nümayəndələri, o cümlədən ictimai təşkilatlar: kütləvi informasiya vasitələri; sahibkar birlikləri; sosial yönümlü qeyri-kommersiya təşkilatları, ticarət və sənaye palataları, şəbəkə təşkilatları, klaster təşkilatları və s. Beləliklə, aparılan tədqiqatlardan belə nəticəyə kəlmək olar ki, klaster üzvlərinin konkret tərkibi və sayı onun fəaliyyət istiqamətlərindən, eləcə də onun nüvəsinin sahəvi qurluşundan birbaşa asılıdır.

Qeyd edək ki, ümumilikdə, regionda klaster idarəetmənin təşkilatı strukturunda klaster üzvləri arasında şaquli və üfüqi istiqamətdə qarşılıqlı əlaqələr və texnoloji əməkdaşlıq münasibətləri formalaşır.

**6. Regional klaster idarəçiliyinin uğurlu fəaliyyət göstərməsi üçün əlaqələrin inkişafı onların yerləşdiyi ərazilərin kompleks inkişafının həyata keçirilməsində, klasterlərin formalaşmasında iştirak edən maraqlı tərəflərin əlaqələrinin təkmilləşdirilməsi mühəndislik infrastrukturu və sosial müdafiənin dəstəyi ilə birləşdirildikdə daha uğurla həyata keçirilə bilər.**

Uzunmüddətli prosesdə iştirak edən əsas maraqlı tərəflərin təhlilinə əsasən, tərəfimizdən birdəfəlik cəhddən sonra bu prosesin davamı olaraq müasir xüsusiyyətləri özündə əks etdirən, Azərbaycan regionlarında klaster idarəçiliyinin təşkilatı strukturu formalaşdırılaraq, onlar arasında qarşılıqlı əlaqələr müəyyən edilmişdir.

Qeyd etdiyimiz idarəetmə strukturu, Azərbaycanın regionlarında klaster idarəçiliyinin təşkili ilə bağlı məlumatları bir araya toplayır və burada klaster maraqlı tərəflərin bir-biri ilə əlaqəli elementi kimi çıxış etməklə, elm və təhsil müəssisələrinin, mühəndislik mərkəzlərinin və eləcə də kiçik və orta sahibkarlıq subyektlərinin resurslarına diqqət

yetirməklə regionun sahəvi inkişafını stimullaşdırır və öz ərazisində yerləşən qurumlara dövlət dəstəyinin artmasına köməklik göstərir.

**7. Dünya təcürbəsində klasterlərin formalaşdırılması mexanizmləri tədqiq edilərək onların ən vacib olanları diqqətdə saxlanılmalıdır.**

Adətən, tədqiqatçılar dünya iqtisadiyyatında şərti olaraq üç əsas klaster modelini fərqləndirirlər: Şimali Amerika, Qərbi Avropa və Asiya modelləri və təbii ki, bu modellərin hər birinin özünəməxsus formalaşma və inkişaf xüsusiyyətləri vardır. Dünya iqtisadiyyatında klaster modellərinin bu cür coğrafi tipologiyası, əsasən aşağıdakı amillərlə şərtlənir: uzun müddətli dövr ərzində bu meqa regionların təcrid olunmuş inkişafı kimi; klaster proseslərinin qurulmuş və kifayət qədər sabit xüsusiyyətləri kimi; strateji əhəmiyyətli təbii resursların fərqli təmin edilməsi, milli və regional bazarların fərqli tutumları; sənayenin sektorial quruluşunun xüsusiyyətləri və eləcə də iqtisadiyyatın tənzimlənməsində dövlətin yeri və rolu kimi amillərlə ilə müəyyən edilir.

**8. Azərbaycanın Lənkəran-Astara regionunda çayçılıqda klaster yanaşmasının perspektivlərini qiymətləndirmək üçün təklif olunan inkişafın əsas parametrləri nəzərə alınmaqla regional iqtisadiyyatda klasterlərin fəaliyyətinin təhlili və qiymətləndirilməsi metodologiyasının hazırlanmasına ehtiyac vardır.**

Tədqiqat zamanı Azərbaycanın regionlarında klaster yanaşmasının perspektivlərini qiymətləndirmək üçün təklif olunan inkişafın əsas parametrləri nəzərə alınmaqla regional iqtisadiyyatda klasterlərin fəaliyyətinin təhlili və qiymətləndirilməsi metodologiyası hazırlanmışdır. Metodikaya əsasən daxildir:

1. İnkişaf proqramlarının və klaster siyasətinin həyata keçirilməsinin nəticələrinin təhlili (Azərbaycan Respublikasının Lənkəran-Astara iqtisadi rayonunun timsalında).
2. İqtisadi rayonlar üzrə dövlət tərəfindən dəstəklənən klasterlərin ümumi fəaliyyətindən iqtisadi inteqrasiya effektinin təhlili.
3. Orta və uzunmüddətli perspektivdə klasterin inkişafının perspektiv sahələrinin və risklərinin təhlili.
4. Azərbaycanda sənaye müəssisələrinin regionlar üzrə özünü təşkil edən xüsusiyyət xəritələri metodundan istifadə edərək təhlili.

5. Klasterlərin sektor potensialının təhlili və koqnitiv klasterlər yaratmaqla onların modernləşdirilməsi perspektivlərinin proqnozlaşdırılması.

Təhlil nəticəsində seçilmiş parametrlərə əsasən bütün ölkəyə nisbətən regionda konkret kənd təsərrüfatının inkişaf dərəcəsi müəyyən edilir ki, bu da rəqabətqabiliyyətliliyi və məhsuldarlığı artırmaq üçün ya klasterin inkişaf etdirilməsi zərurətini irəli sürəcək, ya da ki, klasterin yerləşdiyi regionun potensialı və ya onun inkişafı üçün ilkin şərtlərin və perspektivlərin olmaması səbəbindən konkret regionda klasterin formalaşdırılmasının məqsədəuyğun olmamasını müvafiq dəlillərlə əsaslandırır. Klasterin qiymətləndirilməsi üçün təklif olunan prosedur bazar mexanizmlərinin fəaliyyətini nəzərə alır və klasterin inkişafı prosesinin təbii şəkildə və maraqlı tərəflər üçün minimum xərclə baş tutmasına kömək edir.

**9. Azərbaycan Lənkəran–Astara regionunda çayçılıq sənayesinin innovativ inkişafında maraqlıdır və bu sahənin həm yeni iş yerlərinin yaradılmasında, çay məhsullarının rəqabətqabiliyyətinin artırılmasında və həm də ölkəyə valyuta gəlirlərinin daha da artırılmasında kənd təssərrüfatı klasterlərinin tətbiqi fonunda rolunu yüksək qiymətləndirir.**

Ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsində prioritet hesab edilən sahələrdən biri də çayçılıqdır. İnsanın həyatda qalması və yaşaması üçün vacib hesab edilən nemətlərdən ən əsası sudur. Məhz sudan sonra insan üçün ən məşhur içki çaydır. Ona görə də təsadüfi deyil ki, hazırda dünyada hər gün demək olar 3 milyard fincan müxtəlif çeşidlərdə çayın içildiyi təxmin edilir. Bu baxımdan da, hər bir ölkədə çay sənayesinin çox sürətlə inkişaf edərək böyük həcmdə gəlir gətirməsi və daimi olaraq istehlak rasionunda ən zəruri bir qida növü kimi yer tutması heç kimdə şübhə yarada bilməz.

Ölkə üzrə çay bazarının statistik tədqiqatını aparmaq üçün ilk növbədə əsas göstəricilərdən biri olan çayın əkin sahələrinin dinamikasına baxmaq lazımdır. Aşağıdakı cədvəldə 2010-2022-ci illər ərzində ölkə üzrə çay əkmələrinin sahəsi (ha) verilmişdir ( Cədvəl 1).

### Cədvəl 1. İqtisadi rayonlarda çay əkmələrinin sahəsi (ha)

| İqtisadi rayonlar | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Azərbaycan Respublikası** | **587,0** | **1009,0** | **1016,0** | **1114,3** | **1136,5** | **1082,0** | **1067,2** | **996,2** | **977,2** |
| **Lənkəran-Astara iqtisadi rayonu** | **527,0** | **949,0** | **956,0** | **1054,3** | **1076,5** | **1022,0** | **1007,2** | **936,2** | **917,2** |
| Astara rayonu | 195,0 | 343,0 | 345,0 | 345,0 | 345,0 | 272,5 | 272,5 | 231,5 | 231,5 |
| Lənkəran rayonu | 327,0 | 566,0 | 568,0 | 604,3 | 628,5 | 640,5 | 604,3 | 571,8 | 552,8 |
| Lerik rayonu | - | - | - | - | - | - | - | - | - |
| Masallı rayonu | 5,0 | 40,0 | 43,0 | 105,0 | 103,0 | 109,0 | 130,4 | 132,9 | 132,9 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | **60,0** | **60,0** | **60,0** | **60,0** | **60,0** | **60,0** | **60,0** | **60,0** | **60,0** |
| Zaqatala rayonu | 60,0 | 60,0 | 60,0 | 60,0 | 60,0 | 60,0 | 60,0 | 60,0 | 60,0 |

***Mənbə:*** *DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 1-in məlumatlarından göründüyü kimi, 2010-cu ildən etibarən ölkə üzrə çay əkmələrinin sahəsində artım müşahidə olunmaqdadır. Həmçinin 2017-ci ildə bu göstərici 2010-cu illə müqayisədə 2 dəfə artmışdır. Xüsusilə bu əkin sahələrinin Şəki-Zaqatala və Lənkəran iqtisadi rayonlarında inkişaf etdirilməsi, düzgün strateji addım olaraq qeydə alınmalıdır. Çünki bu rayonlarda mövcud olan təbii iqlim şəraiti çay bitkisinin daha məhsuldar yetişməsinə zəmin yaradan əsas amillərdəndir.

Bir çox ölkələr milli innovasiya proqramlarını həyata keçirmək üçün klaster yanaşmasından fəal şəkildə istifadə edir, bunu müxtəlif qlobal iqtisadi böhranın nəticələrini və təzahürlərini ehtiva edən tədbir hesab edir. Bu gün klaster siyasəti sənaye və regionların rəqabət qabiliyyətinin artırılması, onların orta və uzunmüddətli perspektivdə iqtisadi inkişafı, eləcə də innovativ potensialının artırılması üçün əsas vasitədir.

**Cədvəl 2. Bütün təsərrüfat kateqoriyaları üzrə çay əkmələrinin sahəsi, ha**

| İqtisadi Rayonlar | İl ərzində yeni salınmış bağlar | Əkmələr, hektar | | Məhsul yığımı, ton | | Məhsuldarlıq, sentner/hektar |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | Ondan bar verən yaşda | Cəmi | Ondan bar verən yaşda | |
| **Respublika üzrə cəmi** | **15,0** | **996,2** | **696,3** | **1177,7** | **1177,7** | **16,9** |
| **Lənkəran-Astara iqtisadi rayonu** | **15,0** | **936,2** | **636,3** | **1121,2** | **1121,2** | **17,6** |
| Astara rayonu | - | 231,5 | 231,5 | 788,5 | 788,5 | 34,1 |
| Lerik rayonu | - | - | - | - | - | - |
| Lənkəran şəhəri | 12,5 | 571,8 | 355,8 | 317,2 | 317,2 | 8,9 |
| Masallı rayonu | 2,5 | 132,9 | 49,0 | 15,5 | 15,5 | 3,2 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | **-** | **60,0** | **60,0** | **56,5** | **56,5** | **9,4** |
| Zaqatala rayonu | - | 60,0 | 60,0 | 56,5 | 56,5 | 9,4 |

***Mənbə:*** *DSK-nin məlumatları əsasında hazırlanmışdır*

Dövlət səviyyəsində klaster layihələri klaster təşəbbüslərinin əhəmiyyətini və klasterlərin səmərəli formalaşdırılması üçün zəruri amillər toplusunu müəyyən edir. Yerli və regional hakimiyyət orqanlarının, klaster təşkilatlarının və müxtəlif digər təşkilatların bu cür layihələrə cəlb edilməsi sosial-iqtisadi inkişaf üzrə regional tədbirləri tamamlayan, təsərrüfat subyektləri arasında əməkdaşlıq əlaqələrini gücləndirəcək ümummilli modelin və ya siyasətin formalaşmasına imkan verə bilər.

Klasterin formalaşdırılması imkanlarına regionun coğrafiyası, iqtisadiyyatının sahə üstünlükləri, habelə dövlət və ya regional maliyyə dəstəyinin benefisiarları - klaster üzvləri üçlü spiral prinsipinə uyğun olaraq daxili əməkdaşlıq şəraitində təsir göstərir: özəl sektor, təhsil sektoru, dövlət sektoru (Şəkil 2) .




**Şəkil 2. Klaster daxilində dövlət sektoru, biznes və elm arasında əməkdaşlığın əsas prinsipi**

Qeyd etmək lazımdır ki, klaster məkan baxımından lokallaşdırılmış mürəkkəb iqtisadi sistem kimi müəyyən bir bazarda təsərrüfat subyektlərinin mənfəət və innovasiya fəaliyyəti imkanlarını aşkar etmək və ondan istifadə etmək qabiliyyətini müəyyən edən amillər məcmusudur ki, bu da bizə klasteri iqtisadiyyatın məkan təşkilinin səmərəli forması kimi təklif etməyə imkan verir.

**11. Aqrar sektorun xüsusən də çayçılığın klaster əsasında inkişafının dövlət tərəfindən stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi məqsədəuyğun hesab edilir.**

Ölkəmizdə dövlətin aqrar siyasətinə, əsasən inkişaf sahəsində müəyyən olunmuş bir sıra vəzifələrin həlli istiqamətində uzunmüddətli dövr üçün nəzərdə tutulan iqtisadi qayda və qərarların, eləcə də bu qərarların dolayı və ya birbaşa üsulla bir-biri ilə əlaqələndirilməsinə, xüsusi hallarda isə vacib olan iqtisadi dəyişənlərin (məşğulluq, gəlir, istehlak, investisiya, idxal, ixrac və s.) ümumi vəziyyəti və dinamik artımı üzərində tam nəzarətə yönəldilmiş dövlətin uzaqgörən və şüurlu cəhdləri kimi yanaşmaq olar. Təbii ki, bu siyasət, ilk öncə, qarşıya qoyulmuş əlahiddə məqsədlərə nail olunması şərtilə dövlət xərclərinin ümumi həcmi və konkret istiqamətlərini və həmçinin, təsərrüfat subyektlərinin məşğulluq, məhsul buraxılışı, investisiya qoyuluşları və s. ilə bağlı bir çox qərarlarına təsir göstərmək imkanına malik olur. Aqrar sahədə, əsasən də çayçılıq sektorunda dövlət siyasətinin formalaşdırılması fonunda istehsal

olunacaq müxtəlif növ məhsullara tələb və təklif, istehlak olunacaq xammal və materialların qiyməti, inflyasiya, əmək haqqı, faiz dərəcəsi və s. bu kimi bir sıra parametrlərdə gözlənilən və baş verə biləcək lazımi dəyişikliklər haqqında müəyyən proqnozlar tələb edilir. Eyni zamanda bu kimi parametrlərin dəyişməsinə xüsusi olaraq dövlətin iqtisadi siyasəti birbaşa təsir göstərir.

**Tədqiqat prosesində əldə olunmuş nəticə və təklifləri aşağıdakı kimi quruplaşdırmaq olar:**

1. İqtisadi fikrin əsas istiqamətlərinin retrospektiv təhlili və klaster strukturlarının inkişaf mərhələlərinə müasir baxış təqdim olunur. Klaster nəzəriyyəsinin formalaşmasında müəyyən edilmiş mərhələlər (I mərhələ. XVIII əsr - XIX əsrin əvvəlləri - istehsalın təşkilinin klaster formalarının yaranması; II mərhələ. XIX əsrin sonu - XX əsrin əvvəlləri - klasterin inkişafı, klasterlərin formalaşmasının nəzəri əsasları; III mərhələ XX əsrin əvvəlləri - müasir dövr - klaster nəzəriyyəsinin formalaşması) iqtisadi fikrin təkamülünü və iqtisadi inkişafın ardıcıllığını ən dolğun şəkildə izləməyə imkan verir və təklif olunan xronoloji ardıcıllıq - alimlərin işinin əsas ideyalarını və nəticələrini ümumiləşdirməyə şərait yaradır. Tədqiqatda klasterlərin formalaşmasına dair təqdim olunan elmi fikirlərin sistemləşdirilməsi klasterlərin inkişafında dövlətin iştirakının yerini və rolunu müəyyən etməyə imkan vermişdir.

2. Klasterlərin müəyyən edilməsi üçün meyarlar, klaster anlayışını oxşar strukturlardan ayırmağa imkan verən resurs məkanının yaranması, təşkili və klasterdəki şərait kimi fərqləndirici xüsusiyyətlərə görə müəyyən edilir. Bu tədqiqatın məqsədləri üçün klaster, klaster nüvəsi, klasterin dövlət tənzimlənməsi anlayışlarının məzmunu və klasterin idarə edilməsi anlayışı aydınlaşdırılır, maraqlı tərəflər (dövlət, regionlar, biznes və elmi icmaların) inkişafında klasterlər müəyyən edilir. Əldə edilmiş nəticələr əsasında Azərbaycanda klaster idarəçiliyinin regional təşkilatının strukturu quruldu.

3. Dissertasiyada Azərbaycanda Beynəlxalq təcürbənin öyrənilməsi fonunda klasterlərə dövlət dəstəyinin əsas istiqamətləri tədqiq edilir, klasterlərin hazırkı inkişafı səciyyələndirilir, klaster siyasətinin həyata keçirilməsində dövlətin üzləşdiyi problemlər işıqlandırılır və imkan və ehtiyacların müqayisəsi əsasında onların həlli yolları təklif edilir.

4. Regionlarda klaster siyasətinin həyata keçirilməsi perspektivləri

dissertant tərəfindən region iqtisadiyyatında klasterlərin fəaliyyətinin təhlili və qiymətləndirilməsi üzrə işlənib hazırlanmış metodologiya əsasında qiymətləndirilir. Təklif olunan metodologiyanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, o, regionun inkişafının xüsusiyyətlərini nəzərə alaraq müxtəlif klasterlərin formalaşması proseslərini nəzərə alır və hərtərəfli təsviri əldə etmək üçün kəmiyyət və keyfiyyət qiymətləndirmə üsullarını regionun iqtisadiyyatı ilə birləşdirir. İşdə aparılan klasterlərin təhlili üzrə metodoloji tədqiqatlar klasterləri təşkil etmək və qiymətləndirmək üçün onları Azərbaycanın istənilən regionunda tətbiq etməyə imkan verir.

5. Klasterlərin formalaşması zamanı klaster proqramlarının həyata keçirilməsindən müəyyən risklər yarana bilər. Tədqiqatda işıqfor matrisi üzrə sıralama metodu əsasında risklərin sistemləşdirilməsi tərtib edilib: klaster siyasətinə uyğun olaraq regionun inkişafı riskləri (makrosəviyyə) və klasterlərdə iştirak edən təşkilatların işə salınması ilə bağlı riskləri özündə əks etdirir. Təhlil göstərdi ki, qırmızı zonaya düşən və xüsusi diqqət tələb edən əsas risklər makro səviyyədədir: valyuta məzənnəsindəki mənfi dəyişikliklər, layihənin təxmin edilən dəyərinin aşılması, məsrəflərin inflyasiyası, həmçinin qiymətlərin azaldılması riskləri, təsir dərəcəsi yüksək olan klasterin inkişafına dövlət dəstəyinin həcmi və ya dayandırılması; mikro səviyyədə: qiymətin 15% azaldılmasından əldə edilən gəlirin azalması, işlərin tamamlanmasının ləngiməsi və s. Müəyyən edilmiş riskləri minimuma endirmək üçün tədqiqatda klasterdaxili və xarici şirkətlərin güclü və zəif tərəflərinin təhlili təqdim olunur, regionların və klasterlərin inkişafı strategiyalarının formalaşdırılmasının ümumi prinsiplərini müəyyən etməyə imkan verən klaster mühiti formalaşır.

6. Ölkənin kənd təsərrüfatının, xüsusəndə çayçılığın və onu təşkil edən klasterlərin iqtisadiyyatının inkişafının nəticələrinin təhlili kompleks şəkildə öz əksini tapmışdır. Təhlil Azərbaycanın altı klasterində iştirak edən Lənkəran-Astara iqtisadi rayonunun iqtisadi fəaliyyətinin qiymətləndirilməsinə və onların əsasında regional inkişaf strategiyalarının formalaşmasına dair ümumi prinsip və yanaşmaların müəyyənləşdirilməsinə əsaslanır. Tədqiqat işində təqdim olunan nəticələr klasterlərin bal təhlilinə əsaslanır və klasterlər əsasında rayonun kənd təsərrüfatı və elmi-texniki potensialının inkişafı üçün daxili perspektivlərin mövcudluğunu göstərir.

7. Klasterlərin inkişafı üçün orta müddətli proqnoz, rəqabət

qabiliyyətini artırmaq və potensialını artırmaq üçün aparıcı makroregionlarda (Azərbaycan Respublikası üzrə) klasterlərin inkişaf etdirilməsinin zəruri olduğu qənaətinə gəlməyə imkan verdi. Klasterlərin yerləşdiyi region və klasterlərin inkişafı yolu ilə onların inkişafı üçün ilkin şərtlərin və perspektivlərin mövcudluğu baxımından geridə qalmış makroregionlarda (ölkə üzrə) klasterlərin yaradılmasının məqsədəuyğunluğu; klasterlərin inkişafı üçün perspektivli sektorları qiymətləndirməyə imkan verdi: investisiya üçün tədqiqat və inkişaf sahəsində, kənd təsərrüfatında yüksək məhsuldar iş yerlərinin sayına görə.

8. Tədqiqatda klasterlərin inkişafı üçün uzunmüddətli ssenarilər göstərir ki, 2030-cu ilə qədər olan dövrdə klasterlər Azərbaycan iqtisadiyyatının inkişafı üçün mühafizəkar ssenari üzrə inkişaf edəcək. Tədqiqat Azərbaycan üçün klasterin inkişafı proqramları ilə planlaşdırılan iqtisadi göstəricilər arasındakı uyğunsuzluğu minimuma endirməyə yönəlmiş klaster inkişafı fəaliyyətlərinin yenilənməsinin sinxronlaşdırılması sistemini təqdim edir. Azərbaycan iqtisadiyyatının inkişafı proqnozunun və tədqiqatda əldə edilmiş klasterlərin inkişafı üçün uzunmüddətli ssenarilərin sinxronlaşdırılması orta və uzunmüddətli dövr üçün klasterin inkişafı proqramlarını planlaşdırarkən strategiyaların, proqnozların işlənib hazırlanması üçün hərtərəfli platforma təşkil edir.

9. Klasterin inkişafı texnologiya və innovasiyalara əsaslanan modernləşmə prosesinə əsaslanır. Struktur olaraq regional inkişafın siyasi, iqtisadi, sosial və texnoloji sferalarını əhatə edir. Dissertant klaster modernləşdirilməsinin perspektivlərini texnologiyanın konvergensiyası və klasterin modernləşdirilməsi prosesində formalaşan "idrak klasterləri"nin formalaşmasında görür. Tədqiqat zamanı klasterlərin təkmilləşdirilməsi alqoritmi hazırlanmış və əsaslandırılmış, Azərbaycanın regionlarında idrak klasterlərinin formalaşmasının həyata keçirilməsinə dəstək verən dövlət alətləri və onların inkişafı üçün təlimatlar müəyyən edilmişdir. Dissertantın təqdim etdiyi alqoritmin həyata keçirilməsi nəticəsində qarşılıqlı gücləndirici fəaliyyətlər hesabına potensiala malik olan 6 idrak klasteri (şüurlu təhsil, infrastruktur, avadanlıq, maşınlar, tibb, biosistemlər) formalaşır.

Klasterlərin fəaliyyətinin təhlili və qiymətləndirilməsi metodologiyasından istifadə dövlətə iqtisadiyyatın və klasterlərin inkişafının dəstəklənməsinin məqsədəuyğunluğunun müəyyən edilməsi problemini,

çay istehsalının müxtəlif coğrafi ərazilərdə rasional və gəlirli yerləşdirilməsini, idxalı əvəz etmək, innovasiyalara tələbi artırmaq və regionların inkişafını stimullaşdırmaq vəzifəsini həll etməyə kömək edə bilər.

Dissertasiyada yer alan nəticələr dövlət və klasterlər üçün praktik əhəmiyyət kəsb edir, çünki onlar klaster proqramlarının həyata keçirilməsinin nəticələrini, klasterin inkişafı risklərinin təhlilini, klasterlərin coğrafi mövcudluğunun genişləndirilməsində regionların potensialını və onların perspektivlərini üzə çıxarmaq, orta və uzun müddətli klasterlərin inkişafının istiqamətlərini və gözlənilən nəticələrini özündə ehtiva edir.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı dərc olunmuş əsərlərdə öz əksini tapmışdır:**

1. Məmmədova P.Q. Azərbaycanda çayçılıq ənənələrinin tarixi və inkişafı // Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri jurnalı, 2019, №4, s. 192-200.

2. Məmmədova P.Q. Klaster siyasətinin bölgələrin inkişafındakı rolu və əhəmiyyəti // AHİK, AƏSMA, Ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş “Pandemiyanın dünya ölkələrinin sosial-iqtisadi inkişafina təsiri problemləri”, Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı 2020, s. 47-50

3. Məmmədova P.Q. Xarici bazarlarda David çayının dəyər təklifinin formalaşdırılması xüsusiyyətləri // Əmək və sosial münasibətlər elmi-praktik jurnal, 2021, № 1(15), s. 86-92.

4. Məmmədova P.Q. “David`s tea” şirkətinin fəaliyyət aspektləri və dəyər təklifinin formalaşma xüsusiyyətləri // AHİK, AƏSMA, Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Pandemiyanın dünya ölkələrinin sosial-iqtisadi inkişafina təsiri problemləri”, Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı 2021, s. 76-78.

5. Məmmədova P.Q. Azərbaycanda çayçılığın inkişafında dövlət dəstəyi və onun təkmilləşdirilməsi istiqamətləri // Tikintinin iqtisadiyyatı və menecmenti, elmi-praktiki jurnal, 2021, № 2, s. 154-158.

6. Məmmədova P.Q. Çay klasterlərinin inkişafında dünya təcrübəsi // Əmək və sosial münasibətlər elmi-praktik jurnal, 2021, № 2(16), s. 86-92.

7. COMPARATIVE ANALYSIS OF ECONOMIC INDICATORS OF THE TEA SECTOR OF AZERBAIJAN AND

GEORGIA // RS Global Journals. International Journal of Innovative Technologies in Economy. p-ISSN 2412-8368 e-ISSN 2414-1305. RS Global Sp. z O.O., Poland. 09 December 2021. Parvin Mammadova. (2021) International Journal of Innovative Technologies in Economy. 4(36). doi: 10.31435/rsglobal_ijite/30122021/7717, RS Global Sp. z O.O., Poland. 09 December 2021. № 4(36).p.1-5.

8. Parvin Mammadova CLASTER STRATEGY FOR REGIONAL DEVELOPMENT: THE NATURE, ADVANTAGES AND EXPERIENCE OF INSTITUTIONAL SUPPORTREGİONAL // INTERNATIONAL TEA CONGRESS "industrial, cultural and economic dimensions" 13-15 May 2022/ Lankaran, Azerbaijan Lenkeran State University. (THE PROCEEDINGS BOOK) All rights of this book belong to IKSAD. Without permission can't be duplicate or copied. Authors are responsible both ethically and juridically IKSAD Publications – 2022 ©/ p 224-233.

9. Məmmədova P.Q. Covid-19-un Azərbaycanda çay plantasi-yalarının və çay istehsalının dinamikasına təsirləri // AƏSMA, I Bey-nəlxalq Sosial Elmlər Konfransı, 28-29 sentyabr 2022-ci il, № 2 (16), Bakı–2021, s. 101-106.

10. Məmmədova P.Q., Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsində yeyinti sənayesinin yerivə rolu // ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR ELMİ-PRAKTİK JURNAL, 2023, № 2 (20).

11.“Enhancing the state's role in cluster-based tea development” // Transforming economics for sustainability mövzusunda Beynəlxalq elmi konfrans. Dunaujvaros Universiteti, Macarıstan, 25-26 mart 2024, s.49-58.

12.“The role of the state in the development of the tea sector in Azerbaijan” // IV Beynəlxalq Boğaziçi Elmi Araşdırmalar Konqresi, Türkiyə, İstanbul. 27-28 aprel 2024, s.442-447.



Dissertasiyanın müdafiəsi "30" may 2025-ci il tarixdə saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin www.unec.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "29" aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.04.2025
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (41104 işarə). Tiraj 100.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində*
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*
*Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*